# Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin banisi, qurucusu və xilaskarıdır.

Müdrik Azərbaycan xalqı bu il öz xilaskarı—ulu öndər Heydər Əliyevin 90 illik yubileyini təntənə ilə qeyd edir.

Bütün ölkə bayram əhval–ruhiyyəsindədir. Çünki bəşər tarixində analoqu olmayan fitri istedadlı böyük tarixi şəxsiyyət və fenomenal yaddaşa malik olan dünya şöhrətli siyasətçi, beynəlxalq aləmdə öz həmkarlarından fərqli olaraq, dünyada gedən ictimai–siyasi prosesləri düzgün qiymətləndirən və baş verə biləcək hadisələri və onların törədə biləcək fəsadlarını əvvəlcədən görə bilən və böyük uzaqgörənliklə bu proseslərin gedişatını öz xalqının xeyrinə yönəltməyi bacaran və acı nəticələr verə biləcək hadisələrin baş vermədən qarşısını alaraq xalqını qoruyan, xilas edən ulu öndər Heydər Əliyev çox ağır və mənalı bir həyat sürmüş, son nəfəsinədək vətəninə və xalqına sədaqətlə xidmət edərək onun sevgi və rəğbətini qazanmış—qəlbinə, şüuruna və təfəkkürünə hakim kəsilərək xalqının qəhrəman oğluna, xilaskarına çevrilmiş, qəlbində öz abidəsini yaradaraq ümummilli lider kimi əbədiləşdirmişdir.

Məhz ona görədir ki, bu gün ulu öndər Heydər Əliyevə olan hörmət və ehtiramın, sevgi və rəğbətin bariz ifadəsi kimi keçirilən tədbirlər bütün ölkəni əhatə edərək bir daha ümumxalq birliyinin təntənəsinə səbəb olmuşdur.

Xalqımızın taleyini düşünərək, tarixi keçmişimizə nəzər salanda, zaman–zaman əzildiyimizi, haqsızlıqlara düçar olduğumuzu və bu gün azad və müstəqil bir dövlətdə yaşadığımızı görəndə istər–istəməz düşünürəm ki, 1923–cü il 10 may günü—elə xalqımızın alın yazısı günü imiş… O gün xalqımızın taleyinə bir günəş doğubmuş… Sonralar o Günəş zaman–zaman Azərbaycanın üzərindən qara buludları yarıb işıq saçacaq, onu işıqlı gələcəyə qovuşduracaqmış!…

O Günəş—ulu Tanrının Azərbaycan xalqına bəxş etdiyi və onun xilaskarına çevirdiyi ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyevdir.

Müdriklərin dediyinə görə, böyük Yaradan hər əsrdə xalqlar içərisindən yaratdığı insanlardan birini seçib, ona bilik, mənəvi zənginlik, dərin zəka, fitri istedad, qabiliyyət və əzəmət bəxş edir, ona ad və şöhrət qazandırır, ölkənin asayişini və xalqının taleyini ona tapşırır…

Onun dərin təfəkkürü, dünyagörüşü, elmi, biliyi və ağlı sadə insanların dərk edə bilməyəcəyi dərəcədə elə yüksək səviyyədə olur ki, o, sanki bir günəşə bənzəyir!… Xalq onun nuru ilə zülmətdən xilas olur!

Bu deyimlərin məntiqi nəticəsi kimi düşünürəm ki, Allah–Taala ulu öndər Heydər Əliyevi məhz Azərbaycan xalqını düşdüyü bəlalardan xilas etmək üçün hakimiyyətə gətirmiş və bizi xilas etmişdir.

Ümummilli lider Heydər Əliyevin— "Müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq ondan da çətindir"—kəlamını oxuyanda bir müdrik el məsəli yada düşür: "Şüurlu oğul neyləyir ata malını, şüursuz oğul neyləyir ata malını". Çünki şüurlu onsuz da qazanacaq, şüursuz isə olanı da dağıdacaq!

Bəli, ulu Tanrının Azərbaycan xalqına bəxş etdiyi ən böyük nemət—ümummilli lider Heydər Əliyev və onun yetirməsi, möhtərəm Prezidentimiz cənab İlham Əliyevdir.

Çünki ulu öndər Heydər Əliyev xalqını xilas etdi və müstəqil Azərbaycan dövləti yaratdı. Möhtərəm Prezidentimiz cənab İlham Əliyev isə onu qoruyub saxladı və inkişaf etdirdi. Bu inkişafı bu gün də davam etdirir, müasirləşdirir, sürətli iqtisadi inkişaf dinamikası ilə dünya ictimaiyyətinin diqqət mərkəzində olan bir ölkəyə çevirir. Bəli, bu gün çiçəklənməkdə olan Azərbaycanın paytaxtı Bakı şəhəri gələn qonaqların və turistlərin sevimli şəhərinə çevrilərək onları valeh edir.

Mənalı ömrünü bütün varlığı qədər sevdiyi Azərbaycana və Azərbaycan xalqına həsr edən ulu öndər Heydər Əliyevin titanik fəaliyyəti göz qabağındadır. Bunları bütün təfərrüatı ilə sadalamaq, söz ilə ifadə etmək, kağız üzərində əks etdirmək qeyri–mümkündür. Çünki buna nə bir ömür, nə vaxt, nə də adi insan təfəkkürü qadir deyildir. Qısaca olaraq onu qeyd etmək istəyirəm ki, bunları azca da olsa anlaya bilmək üçün normal təfəkkürə malik olan bir insanın—ulu öndərin 1969–cu ildən bu günə qədərki fəaliyyətini bir kino lenti kimi gözü qarşısına gətirməsi kifayət edər. Onun bizə məlum olmayan məxfi xidmət orqanlarındakı fəaliyyətini və bu fəaliyyəti zamanı vətənimiz və xalqımız üçün göstərdiyi fədakarlıqlarını, qəhrəmanlıqlarını düşünəndə istər–istəməz "Baharın on yeddi anı" filminin elə onun haqqında çəkildiyini zənn edirsən.

Odur ki, böyük türk oğlu olaraq heyrətamiz dərəcədə təsir gücünə malik olan güclü şəxsiyyət kimi hələ o vaxt nəhəng Sovetlər Birliyinin nüfuzlu rəhbərlərindən biri olaraq qəbul edilməsi və sevilməsi türk dünyasının düşmənlərini qorxuya salmışdı.

Dünyanın idarə olunmasında böyük təsir gücünə malik olan dövlətlərin belə prezidentlərinin seçilməsində həlledici rol oynaya bilən və dünya həqiqətlərini saxtalaşdırmaqda ixtisaslaşan erməni lobbisi, dini düşmənçilik toxumu səpərək müsəlman dünyasının əleyhinə olan bütün qüvvələri səfərbər edib böyük türk oğluna qarşı qoydu!

Nəhayət, 1987–ci ildə qeyri–adi istedada malik olan bir rəhbər kimi dünyada nüfuz qazanmış və milliyyətindən, dilindən, dinindən asılı olmayaraq beynəlxalq aləmdə dünya xalqlarının rəğbətini qazanmış o böyük dahini düşünülmüş plan əsasında qərəzli olaraq vəzifəsindən uzaqlaşdırdılar. 40 gün keçməmiş qondarma Dağlıq Qarabağ problemini ortaya atdılar. Vəzifəsindən uzaqlaşdırılan Heydər Əliyev bir lider kimi yenə də yüksəkdə dayanırdı, ondan yenə də qorxurdular. Odur ki, sui–qəsdlər hazırlayır, onu cismən məhv etməyə çalışırdılar. Məlumdur ki, şəxsiyyətlər üzərində araşdırmalar və təhqiqatlar aparan müvafiq institutları olan böyük dövlətlərin rəhbərləri çox gözəl bilirdilər ki, vətənini və xalqını öz canından, doğma balasından artıq sevən dahi şəxsiyyət Heydər Əliyev üçün ən ağır zərbə—onun xalqını əzmək, müstəqilliyini əlindən almaqdır! Odur ki, bundan məlumatlı olan əks qüvvələr çirkin niyyətlərinə nail ola bilsinlər deyə, ilk növbədə o böyük şəxsiyyəti mənən əzməli və ya aradan götürməli idilər… Odur ki, təqiblər, təzyiqlər davam edir, killerlər isə öz işində idilər…

Onun hakimiyyətdə olmamasından istifadə edərək erməni katalikosunun məkrli əməllərindən və qərbin dəstəyindən ilham alan sovet rəhbərliyi başda Qorbaçov olmaqla Azərbaycanın çörəyini yeyən və nefti ilə güclənən sovet ordusunun əli ilə 1990–cı ildə dinc əhaliyə qarşı dəhşətli 20 Yanvar qırğınlarını törətdilər. Dəhşətli 20 Yanvar faciəsinin səhərisi günü yataqda xəstə olan ulu öndər Heydər Əliyev heç bir terrordan, təqib və təzyiqlərdən qorxmayaraq tək–tənha, gənc oğlu cənab İlham Əliyevlə çiyin–çiyinə, ailəsi

ilə birlikdə Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəlir, mətbuat konfransı keçirir. Azərbaycan xalqının haqq səsini ilk dəfə olaraq dünya ictimaiyyətinə çatdırır və Qorbaçovun bu əməliyyata birbaşa rəhbərlik etdiyini, cinayətkar olduğunu çəkinmədən bəyan edir. Bütün bunlara baxmayaraq, Heydər Əliyevi öz iradəsindən döndərə bilmirlər və o, xəstəliyinə belə güc gələrək xalqının müdafiəsi naminə ayağa qalxır!… Vətənə qayıdır.

Azərbaycan xalqı öz böyük oğlunu bağrına basaraq onu qorudu və yaşatdı. O da öz növbəsində xalqının dayağı oldu!

Ulu öndərimiz Heydər Əliyev dağılmış SSRİ zəncirindən ayrılmış bir qızıl xəzinəsi kimi Azərbaycanı əhatəyə almış və pay–püşk eləməyə hazırlaşmış məlum qüvvələrdən azad edərək onu qorudu, müstəqilliyini əldə etdi, xalqını firavan yaşatmaq üçün böyük əzmlə quruculuq işlərinə başladı…

Söz yox ki, düşmən qüvvələr yatmır, öz məkrli əməllərində davamlı idilər…

Demokratiya pərdəsi altında fəaliyyət göstərən bu qüvvələr ümummilli liderimiz Heydər Əliyevin uzaqgörənliklə həyata keçirdiyi "Əsrin müqaviləsi" kimi siyasi əhəmiyyətli Dövlət Proqramına—bütün dünyanı valeh edən neft strategiyasına qarşı çıxsalar da, ona mane ola bilmədilər. Ulu öndər müəllifi olduğu və dünya siyasətçilərinin əfsanə adlandırdığı Bakı–Tbilisi–Ceyhan neft boru kəmərini dünya qarşısında qəhrəmanlıq edərək həqiqətə çevirdi. Beynəlxalq İpək Yolunu bərpa etdi və öz təşəbbüskarlığı ilə mərkəzi ofisin Bakıda yerləşdirilməsinə nail oldu.

Bütün əks qüvvələrin çarpışmalarına və təkidlərinə baxmayaraq, rəhbəri ulu öndər Heydər Əliyev olan Azərbaycanı müharibəyə sürükləyə bilmədilər. Ulu öndər atəşkəs elan edərək dinc, azad və müstəqil Azərbaycan Respublikasını yaratdı, Avropa və Qərb dəyərlərinə inteqrasiya etdirərək onu müasirləşdirdi!

Görülən işlərin həcminə və mahiyyətinə görə zaman etibarilə hər günü bir ilə bərabər olan Heydər Əliyev fəaliyyətinin çalarlarını sadalamaqla, sözlə ifadə etməklə qurtarmaq qeyri–mümkündür. O, kompyuter sürəti ilə çalışmış, illəri günlərə çevirmiş, xalqımızın bir millət kimi formalaşmasında, dövlətçiliyimizin yenidən qurulub yaradılmasında adi insan təfəkkürünə sığmayan dərəcədə böyük işlər görmüş, xalqımızın XX əsrdən sonrakı taleyini artıq həll etmişdir…

Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin banisi olmaqla nəinki Azərbaycan, türk, müsəlman dünyasına, hətta belə beynəlxalq aləmdə sülhsevər xalqlar dünyasına nur saçan, Azərbaycandan doğulan bir günəşdir!!!

"Azərbaycana məhəbbət, xalqıma məhəbbət mənim qanımdadır, beynimdədir, bütün varlığımdadır! Heç kəs, heç bir qüvvə bu məhəbbəti məndən ala bilməz!"—deyən və o ülvi hisslərlə yaşayan dahi şəxsiyyət Heydər Əliyev xalqımızın görən gözü, düşünən beyni, danışan dili, döyünən ürəyidir!… Poetik dildə desək:

Mələklər qoynunda imdada çatan,
Xalqın nicat yolun xalqa anladan,
Müqəddəs bu yolda təkcə can atan
İlahi qüvvədir Heydər Əliyev!

Bəşər tarixində yeri görünən,
Xalq ilə ağlayıb, xalq ilə gülən,
Birgə nəfəs alıb, birgə döyünən,
Vuran ürəyidir Heydər Əliyev!

Millətin şərəfin, adın ucaldan,
İmzasın əbədi tarixə atan,
Düşdüyü bəladan çıxış yol tapan,
Düşünən beynidir Heydər Əliyev!

Haqqın, ədalətin keşiyin çəkən,
Xalqın düşməninin gözünü tökən,
Siyasi meydanda hər sözü keçən,
Danışan dilidir Heydər Əliyev!

Vətən, xalq yolunda canını verən,
Həyatda mənalı bir ömür sürən,
Hər bir addımında uzağı görən,
Xalqının gözüdür Heydər Əliyev!

Qılıncın qənimi, qələmin qulu,
Haqqın dərgahında uludur, ulu.
Sevdiyi Vətəndir, həm Allah yolu,
Sönməz, əbədidir Heydər Əliyev!

Həsən deyər, haqq sözünü elinən,
Sevgi zor edilməz xalqa gücünən
Dünyada hər yerdən görünə bilən,
Əlçatmaz zirvədir Heydər Əliyev!

Beş yüz il bundan əvvəl yağı düşmənlər tərəfindən parçalanmış Azərbaycanı birləşdirən və müstəqilliyini bütün dünyaya qəbul etdirən Şeyx Heydər oğlu Şah İsmayıl Xətaidən sonra yenə də parçalanmış, tayfalara bölünmüş, vətəndaş müharibəsi içində can verən, son nəfəsini dərən, əhatəsində olduğu hegemon dövlətlər tərəfindən bölünüb, pay–püşk olunmağa hazırlanmış Azərbaycana bədənə ruh daxil olan kimi daxil olan, iradəsi sındırılmış, torpaqları satılmış, işğal edilmiş bu yorğun xalqı ölüm–dirim savaşına qaldıran, bütün gücü və iradəsi ilə dünyaya qarşı dayanıb Azərbaycan xalqının haqqını, mənəviyyatını, özünü özünə qaytaran, Azərbaycan xalqını öz taleyinin, öz tarixinin, öz dövlətinin, torpaqlarının, yerüstü, yeraltı sərvətlərinin sahibi edən, Azərbaycanı dünya dövlətləri sırasına öz adı, öz tarixi, öz bayrağı ilə salan, tarix–diyarşünaslıq muzeyləri yaradaraq, xalqın özünü özünə tanıdan, keçmişi ilə gələcəyini birləşdirən bugünki tarixini yazan, bütünlükdə Azərbaycan xalqını və dövlətini yox olmaqdan xilas edən, müstəqil

Azərbaycan dövləti yaradan ulu öndər Heydər Əliyev xalqımızın qəlbində əbədi yaşayacaqdır!

O öz xeyirxah əməlləri ilə bu gün də yaşayır!… Nə qədər ki Azərbaycan xalqı yaşayır, Heydər Əliyev də yaşayacaqdır!

Nə qədər ki Heydər Əliyev ideyaları yaşayır, Azərbaycan da müstəqil olaraq çiçək açacaqdır.

Heydər Əliyev ideyalarının yaşaması müstəqil Azərbaycan dövlətinin yaşaması deməkdir!

Müstəqil Azərbaycan dövlətinin xoşbəxt gələcəyi yalnız və yalnız Heydər Əliyev siyasi kursunun təntənəsi ilə bağlıdır!

Qardaş türk xalqının böyük oğlu Süleyman Dəmirəlin təbirincə desək, "O sanki bir paydır göydən düşüb". Heydər Əliyev Azərbaycan xalqının nicatı üçün bir şansdır—vətəni və xalqı yolunda canını sipərə çevirən qeyrətli oğuldur.

Bəli, o, Allah–Taalanın bizə bəxş etdiyi ən böyük paydır…

Heydər Əliyev böyüklüyünü dərk etməyən bir kimsənin vətən, xalq sevgisindən danışmağı absurddur. Ona görə ki, bəşər tarixində önəmli yeri və böyük xidmətləri olan Heydər Əliyev qədər Azərbaycanı və Azərbaycan xalqını sevən ikinci bir insan təsəvvür etmirəm. Ədalət sahibi olan o dahi insan sözün əsl mənasında vətənə, xalqa məhəbbət, ailəyə, övlada sevgi, insanlığa, dostluğa sədaqət rəmzi idi. Zaman keçdikcə o, bizə daha da yaxınlaşır, doğmalaşır, unudulmaz olur, onun fəaliyyətini, gördüyü işlərini, nitqini, nitq mədəniyyətini xatırladıqca, ona qarşı sevgi və rəğbət hissi təkrar–təkrar baş qaldırır, onun dahiliyi göz önündə canlanır…

O bir Allah vergisidir!… Həyatda elə bir hadisə, elə bir məsələ, elmin elə bir sahəsi yox idi ki, ondan söhbət açarkən həmin sahənin mütəxəssisindən o yüksəkdə dayanmasın!

Azərbaycanın ən yeni tarixinin yaradıcısı Heydər Əliyev kimi dahini, onun adi insan təfəkkürünə sığmayan titanik fəaliyyətinin mahiyyətini, analoqu olmayan ictimai–siyasi yaradıcılığının nə kimi mühüm əhəmiyyət kəsb etdiyini gələcək nəsillər, eləcə də bütün dünya zaman ötdükcə, daha düzgün qiymətləndirəcəklər!…

Haqq, ədalət, əmin–amanlıq, qəhrəmanlıq rəmzi olan və bəşəri dəyərləri özündə birləşdirən o böyük insan üçün milliyyətindən, dinindən, dilindən və tutduğu mövqedən asılı olmayaraq yalnız bir amil var idi—insan amili… Vətəninə, xalqına sadiq olan və insanlığa xas olan bütün mənəvi dəyərləri özündə yaşadan bəşəri insan! Odur ki, o cür insanlara həmişə səmimi olan ulu öndər xarici ölkələrə səfərləri zamanı ünsiyyətdə olduğu bütün insanlar tərəfindən böyük sevgi və rəğbətlə qarşılanmış, qəlblərinə hakim kəsilərək, xoş xatirələrlə yadda qalmışdır…

Dünyada gedən bütün ictimai–siyasi prosesləri düzgün qiymətləndirən, baş verə biləcək hadisələri əvvəlcədən duyan və böyük uzaqgörənliklə bunları öz fəaliyyəti ilə əlaqələndirməyi və zərərsizləşdirərək xalqını qorumağı bacaran Heydər Əliyev kimi lideri olan Azərbaycan xalqı qibtə ediləcək dərəcədə xoşbəxtdir!

Dünənimizlə sabahımızı qovuşduran bu günümüzün mahiyyətini kəsb edən Heydər Əliyev siyasi kursunun—dövlətçilik və idarəçilik məktəbinin metodologiyasının sirlərinin bir inteqral kimi açılması, öyrənilməsi və Şah İsmayıl Xətaidən bugünə qədərki dövrümüzlə müqayisə edilməsi gələcək nəsillərin maariflənməsi üçün zəruridir.

Onda görərik ki, bəşər tarixində bir–birinə zidd olan iki müxtəlif ictimai–siyasi quruluşun, birinin tənəzzülü—digərinin tərəqqisi ilə müşaiyət olunan siyasi proseslər fırtınasının dalğasında uğurlar qazanan Heydər Əliyev siyasəti və idarəçiliyi dövləti idarəetmə sistemində ən optimal variant olaraq yeni bir kəşfdir.

Məhz buna görədir ki, tarixin sınaqlarından həmişə qalib çıxan, fitri istedadlı dahi şəxsiyyət Heydər Əliyev öz siyasi gedişləri və idarəçilik manevrləri ilə dünyanı həmişə heyrətdə qoymuşdur.

Odur ki, ulu öndər Heydər Əliyevin necə bir fenomen şəxsiyyət olduğunun dərk edilməsi istiqamətində fəaliyyət göstərməkdən zövq alır, təsəlli tapıram… Təsəlli tapıram ki, onun ideyaları yaşayır və mən ona xidmət edirəm.

Ümummilli lider Heydər Əliyevin amallarının yaşaması mənim ən böyük arzumdur.

Ulu öndərimizin vətən hissi ilə döyünən o böyük ürəyində kök salan, sonsuz arzuları silsiləsindən duyduğum bəzi məqamların məzmununu rəssam Adil Rüstəmovun əsərlərində əks etdirilməsinə nail olmuş, həmin əsərlərin yaranmasında bir ideya müəllifi kimi çıxış etmişəm. Mənim üçün sevindirici hal o idi ki, bu əsərlərin hər biri ulu öndərimizin özü tərəfindən razılıqla qəbul edilmişdir. Buna görə də mən özümü çox xoşbəxt sanmış və sevinmişəm. Bu gün də sevinirəm. Sevinirəm ona görə ki, o böyük şəxsiyyəti az da olsa qane edə və sevindirə bilmişəm. Hərçənd ki, hamıya və bütün ictimaiyyətə bəllidir ki, dünya malında gözü olmayan o dahi şəxsiyyəti hər hansı bir işdə tam razı salmaq, qane etmək asan məsələ deyildir. Çünki elmin bütün sahələrindən başı çıxan, təbiətin bütün sirlərinə bələd olan və alimlə–alim, fəhlə ilə fəhlə, musiqiçi ilə musiqiçi, həkimlə–həkim, mülənllimlə–müəllim, rəssamla–rəssam kimi danışan, bir sözlə, hər bir insanla onun öz dilində danışmağı bacaran və uşaqla–uşaq, böyüklə–böyük olan, fitri yaddaşa və dərin təfəkkürə malik olan O, qeyri–adi, təkrarolunmaz, sadə olduğu qədər də ciddi olan bir insanı tam qane etmək, adi insan təfəkkürü ilə qeyri–mümkündür!

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bəşər tarixində analoqu olmayan elə bir qeyri–adi şəxsiyyətdir ki, onun istirahəti—elə işləməyində idi!…

Dərindən təhlil edəndə görürsən ki, bəşər tarixində Heydər Əliyevə qədərki bütün tarixi şəxsiyyətlərdə olan keyfiyyətlər Heydər Əliyevdə də var. Lakin Heydər Əliyevdə olan elə xüsusi keyfiyyətlər var ki, o xüsusiyyətlər ona qədərki tarixi şəxsiyyətlərin heç birində olmayıb.

Elə tək onu qeyd etmək kifayət edər ki, O, fitri istedadı və fenomenal yaddaşı ilə dünyanı heyran qoymuşdur.

O, həyata atıldığı ilk andan hər nə görmüş, hər nə oxumuşdursa—hamısı sanki kompyuter yaddaşı kimi beynində həkk olunmuşdur. Bu istedad, onunla rastlaşan bütün insanlarda təəccüb doğurmuşdur, heyrətə gətirmişdir. Saatlarla nitq söyləyər, bir dilçi, ədəbiyyatşünas kimi heç bir qrammatik səhvə və fikir təkrarlığına yol vermədən heç bir yazıya, sənədə istinad etmədən bütün tarixi faktları, hadisələri, statistik rəqəmləri belə dəqiqliyi ilə söyləyərdi. Bəli, buna hamı heyran qalmışdı. Bu gün də heyrətlə xatırlayırlar. Öz yüksək intellektual və mədəni səviyyəsi ilə tənqidlərində belə heç bir təhqirə yol verməzdi. Odur ki, düşmən qüvvələrin nümayəndələri belə onun qarşısında özünü tərbiyəli aparırdı! Müxtəlif xalqlar qarşısında çıxışlar edərkən bir dildən başqa dilə keçəndə də nöqtəsinə, vergülünə qədər eyni dəqiqliklə çıxış edərdi. Və çıxış edə–edə də

onun gözündən heç nə yayınmırdı, xüsusi xidmət orqanlarının Ali rütbəli zabiti kimi, peşəkarcasına hər şeyi görür və vaxtında reaksiya verirdi.

Ulu öndərin apardığı müdrik və uzaqgörən siyasətinin, gördüyü qlobal işlərin və titanik zəhmətinin sayəsində bu gün Azərbaycan müstəqil olaraq özü–özünü idarə edir və müstəqil siyasət aparır. Lakin bunun əksinə olaraq Ermənistan Respublikası idarə olunur və müstəqil deyildir.

Bütöv bir millətə bərabər qüvvə olan ulu öndər Heydər Əliyev dünyaya qarşı tək dayanaraq hadisələri qabaqlayıb, Dağlıq Qarabağ probleminin çözülməsini hər an gündəmə gətirirdi. Lakin həmişə də şər qüvvələrin təsirindən bu problemin həlli hər cür bəhanələrlə təxirə salınır, gecikdirilirdi.

Belə ki, ulu öndərin Dağlıq Qarabağ uğrunda apardığı mübarizə Lissabon Sammitində öz kulminasiya nöqtəsinə çatdı. Hamıya yaxşı məlumdur ki, Ermənistandan başqa bütün dövlətlərin dəstəyinə nail oldu. Belə bir vəziyyətdə Ermənistan prezidenti Ter–Petrosyana və onun arxasında duran qüvvəllərə "hə" deməkdən başqa ikinci bir çıxış yolu qalmadı. Vəziyyətin Azərbaycanın xeyrinə belə dəyişməsini görən Ermənistan yeganə çıxış yolunu idarə olunduqları xarici qüvvələrin diktəsi ilə öz prezidentləri Ter–Petrosyanın istefaya göndərilməsində gördü.

Beləliklə də yeni problemlər yaratdılar; yeni prezident seçkiləri, yeni sənədləşmələr, yeni sövdələşmələr, yeni görüşlər və sair kimi vaxt aparmalarla yenə də problemin çözülməsinin vaxtının uzadılmasına nail oldular.

Problemin çözülməsinə bütün vasitələrlə mane olmağa çalışdılar. Lakin bütün bunlara baxmayaraq ulu öndər bu dəfə də Qarabağ probleminin həlli məsələsini İstanbul Sammitində parlament səviyyəsində qaldırdı.

Burada da problemin ədalətli həllinin artıq baş tutacağından qorxuya düşən əks qüvvələr ulu öndər Heydər Əliyevin dünyada yeni siyasi təfəkkürün formalaşması istiqamətindəki apardığı sivil mübarizəsi qarşısında aciz qaldıqlarını büruzə verərək xüsusi xidmət orqanlarının əli ilə misli görünməmiş terrora əl atdılar—Ermənistanın parlamentini iclas gedə–gedə gülləbarana tutdular.

Əslində bu—dahi Heydər Əliyev siyasətinin beynəlxalq aləmdə məğlubedilməzliyinin dünya miqyasındakı təntənəsi idi!

Bu proseslərdə yaxından iştirak edən və onun layiqli davamçısı kimi ölkə Prezidenti cənab İlham Əliyev bu kursu daha da inkişaf etdirdi, dərinləşdirdi və bütün sahələrə şamil etdi.

Bəli, bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyev Azərbaycanın ictimai, iqtisadi, siyasi və mədəni həyatında inqilabi dönüş yaradaraq böyük nailiyyətlər əldə etmiş, xalqının etimadını doğrultmuşdur!

Azərbaycanı və Azərbaycan xalqını sevən hər bir vətənpərvər insan bugünkü firavanlığa, əmin–amanlığa, davamlı ictimai–siyasi sabitliyə, ölkəmizin getdikcə beynəlxalq aləmdəki nüfuzunun artmasına və xalqımızın rifah halının, həyat səviyyəsinin durmadan yaxşılaşmasına görə ulu öndərimiz Heydər Əliyevə və onun siyasi kursunu ləyaqətlə davam etdirən möhtərəm cənab Prezidentimiz İlham Əliyevə borcludur!…

O dahi şəxsiyyət haqqında yazılanları, deyilənləri bütün mətbuatdan izləyən bir insan kimi qeyd etmək istəyirəm ki, adi yazarlardan tutmuş akademiklərə qədər nə qədər yazsalar

da, nə qədər yazsaq da, hələ də Heydər Əliyev dahiliyini olduğu kimi tam ifadə edə bilməmişik və bilməyəcəyik də. Çünki hər bir kəs öz düşüncə tərzi və təfəkkür dairəsi daxilində görür və yazır. Bütün bunlar isə, obrazlı desək, təbiətin çərçivəyə salınmış kiçik bir hissəsinə bənzəyir ki, bu da, söz yox ki, təbiəti tam təsvir etmir…

Geri çəkildikcə dağın əzəməti, böyüklüyü aydın göründüyü kimi, zaman etibarilə biz ulu öndərdən uzaqlaşdıqca onun böyüklüyü daha dolğun və düzgün dərk ediləcək, ona qarşı yaranan sevgi, rəğbət dəryası öz məcrasını aşaraq okeanlara qovuşacaqdır…

Bu gün ulu öndərin ayağı dəyən yerləri ziyarətgaha çevirən, qədirbilən, müdrik xalqımız onu böyük rəğbətlə sevmiş, sevir və sevəcəkdir!

**Həsən Şirinov,**
**Bakı şəhəri Baş Polis İdarəsinin rəis**
**müavini, polis general–mayoru**

**Respublika.-2013.-10 may.-S.11.**